8 oktyabr / 2020

# Döyür qapımızı Zəfər müjdəsi

*Qəmli ürəklərə gəlibdir bahar,*
*Ümid çöllərində əriyibdir qar.*
*Qələbə ətrinə bələnib yollar,*
*Döyür qapımızı Zəfər müjdəsi.*

*Duyuram səsini damarda qanın,*
*Büsatı özgədir hər ötən anın.*
*Adına eşq olsun Baş Komandanın,*
*Döyür qapımızı Zəfər müjdəsi.*

*Düşür ürəklərdən kədər daşları,*
*Axır gözümüzdən sevinc yaşları.*
*Vətən salamlayır qızılbaşları,*
*Döyür qapımızı Zəfər müjdəsi.*

*Daha Telli Sənəm gözləri aydın,*
*Sevincdən açılıb qolun-qanadın.*
*Sevinc qorxuludur bu gün həyatın,*
*Döyür qapımızı Zəfər müjdəsi.*

**Telli Sənəm BORÇALI**